**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasının ərazisində xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi barədə” 2020-ci il 31 mart tarixli 122 nömrəli və “Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında” 2020-ci il 2 aprel tarixli 124 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasının ərazisində xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 31 mart tarixli 122 nömrəli Qərarına 1 nömrəli əlavə - “Azərbaycan Respublikasının ərazisində elan edilmiş xüsusi karantin dövründə rəhbərləri və zəruri halda işçiləri işə cəlb edilən dövlət orqanlarının və qurumlarının Siyahısı”na aşağıdakı məzmunda 73-cü hissə əlavə edilsin:

“73. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi”.

~~2. “Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 aprel tarixli 124 nömrəli Qərarına 1 nömrəli əlavə - “Əməkdaşları məhdud sayda işə cəlb edilməli olan dövlət əhəmiyyətli və həyat təminatı obyektlərin, habelə fasiləsiz fəaliyyət göstərən müəssisələrin Siyahısı”na aşağıdakı məzmunda 24-38-ci hissələr əlavə edilsin:~~[1]

~~“24. Bakı Şəhər İcra Hakimiyyəti və onun tabeliyindəki qurumlar~~

~~25. Şəhər və rayon icra hakimiyyəti orqanlarının kommunal xidmətləri həyata keçirən qurumları~~

~~26. “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti~~

~~27. “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti~~

~~28. “AzInTelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti~~

~~29. “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti~~

~~30. Dövlət Avtomobil Nəqliyyatı Xidməti~~

~~31. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi~~

~~32. “Azercell Telecom” Məhdud Məsuliyyətli Cəmiyyəti~~

~~33. “Bakcell” Məhdud Məsuliyyətli Cəmiyyəti~~

~~34. “AzerFon” Məhdud Məsuliyyətli Cəmiyyəti~~

~~35. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmət və sosial reabilitasiya müəssisələri~~

~~36. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmətçiləri~~

~~37. Məişət tullantılarının yığılması və utilizasiyası müəssisələri~~

~~38. Yanacaqdoldurma məntəqələri”.~~

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 3 aprel 2020-ci il
125

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 15 may 2020-ci il tarixli **176** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti 17 may 2020-ci il, 96 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 647)**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 15 may 2020-ci il tarixli **176** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti 17 may 2020-ci il, 96 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 647)** ilə 2-ci hissəsi ləğv edilmişdir.